# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN "YAŞIL ENERJİ" SİYASƏTİ YENİ REALLIQLAR KONTEKSTİNDƏ

**Qərib Əsgərov**

*Dövlət Sərhəd Xidməti Akademiyası, Bakı*
*qerib.azadoglu@mail.ru*

Son dövrlərdə dünyada baş verən ictimai-siyasi proseslər, müxtəlif regionlarda baş qaldıran silahlı münaqişələr enerji təhlükəsizliyi sahəsində bir sıra yeni təhdidlərin yaranması ilə nəticələnmişdir. Aparıcı enerji təchizatçılarının birbaşa olaraq münaqişələrə cəlb olunması, Rusiya və İran kimi əsas enerji təchizatçılarına qarşı müxtəlif sanksiya paketlərinin qəbul edilməsi mövcud risklərin daha da artmasına səbəb oldu.

Bildiyimiz kimi, postpandemiya dövründə iqtisadi aktivliyin bərpası və enerjiyə tələbatın artması fonunda enerji qiymətləri, o cümlədən də təbii qaz və elektrik qiymətləri xeyli yüksəlmişdir. Enerjiyə olan tələbatın artdığı bir şəraitdə təəssüflər olsun ki, bu gün bəzi enerji təchizatçıları bundan öz maraqları naminə, hətta təsir vasitəsi kimi istifadə edirlər. Mövcud şərait zəngin enerji mənbələri uğrunda rəqabəti dərinləşdirməklə yanaşı, dünya dövlətlərini həyata keçirdikləri enerji siyasətinə yenidən baxmağa sövq etmişdir. Bu baxımdan son dövrlər regionda baş verən hadisələr konteksində enerji təchizatı mənbələrinin diversifikasiyası istiqamətində fəaliyyətlər daha da artmışdır.

Enerji mənbələrinin diversifikasiyası istiqamətində sistemli addımların atılması məqsədilə 2022-ci il mayın 18-də dayanıqlı enerji sistemi qurmağı sürətlə hədəfləyən "RepowerEU" planının Avropa Komissiyası tərəfindən təqdim edilməsi ilə enerji təchizatçısı kimi geniş imkanlara malik olan dövlətlərlə bu sahədə

əməkdaşlığın daha da intensivləşdirilməsi mühüm prioritetlərdən biri oldu. Bu planın əsas istiqamətlərindən birini "ağıllı investisiyalar" qoymaq yolu ilə enerji mənbələrinin diversifikasiyasına nail olmaq idi.

Avropa İttifaqının və xüsusən də Cənub-Şərqi Avropa hissəsinin Rusiya Federasiyasının qazına alternativ axtarışlarında üz tutduğu mənbələr içərisində Azərbaycan Respublikası daha cəlbedici görünürdü. Azərbaycanın malik olduğu zəngin enerji resursları, həyata keçirdiyi regional əhəmiyyətli nəhəng enerji layihələri, ölkədə enerji tədarükü üçün lazımi infrastrukturun mövcud olması, eləcə də bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən uğurlu enerji siyasəti nəticəsində qazanılmış "etibarlı tərəfdaş" imici bu cəlbediciliyi daha da artırmış oldu.

Artan tələbatlar və yeni reallıqlar kontekstində Azərbaycan Respublikası özünün həyata keçirdiyi enerji təhlükəsizliyi siyasətində keyfiyyətcə yeni bir mərhələyə – "Bərpaolunan və yaşıl enerji"yə keçidi reallaşdırdı.

2022-ci il avqustun 31-də "The European House – Ambrosetti" beyin mərkəzi tərəfindən "Dünya, Avropa və İtaliyaya baxış" və "Rəqabətli strategiyalar üçün bu günün və sabahın senarisi" mövzusunda 48-ci Beynəlxalq Çernobbio Forumu çərçivəsində çıxış edən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dəyərləndirməsinə əsasən görmək olar ki, artıq müstəqil Azərbaycan Respublikasının uğurlu enerji siyasətində neft və təbii qaz amilindən başqa, sayca üçüncü, məzmun etibarilə yeni olan bərpaolunan enerji seqmenti dövrünə başlanılmışdır. Prezident cənab İlham Əliyev Azərbaycanın artıq müasir texnologiyalar tətbiq edilməklə ənənəvi enerji resurslarının bərpaolunan enerji mənbələri ilə əvəz edilməsini özündə ehtiva edən siyasi kursu həyata keçirməyə başladığını açıq şəkildə bəyan etmişdir.

Bərpaolunan və yaşıl enerji əsasında istehsal edilən elektrik ixracı Azərbaycanın enerji strategiyasında yeni eranın başlanğıcı oldu. Bu strategiyanın əsasını Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən müəyyənləşdirilən və 2021-ci ilin fevralında qəbul edilən "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafın Milli Prioritetləri" təşkil edir. Beş Milli Prioritetdən biri olan təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi əsas prioritet hədəflər kimi müəyyənləşdirildi. Cənab İlham Əliyevin işğaldan azad edilmiş ərazilərlə bağlı müəyyən etdiyi iqtisadi inkişaf kursunda bu ərazilərin "yaşıl enerji" zonasına çevrilməsi də məhz bu strategiyaının əsas istiqamətlərindən biri kimi qiymətləndirilməlidir. Həyata keçirilən tədbirlər nəticəsində qısa müddət ərzində işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası yaşıl enerji zonası elan olunmuşdur. Bu gün azad edilmiş bütün ərazilərdə "ağıllı şəhər" və "ağıllı kənd" kimi innovativ yanaşmalar tətbiq edilir, ekosistem bərpa olunur.

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 3 may 2021-ci il tarixli 2620 nömrəli Sərəncamına əsasən hazırlanmış Konsepsiyanın da əsas məqsədi məhz işğaldan azad edilmiş ərazilərdə mövcud olan yüksək bərpaolunan enerji potensialından istifadə etməklə ərazini ekoloji cəhətdən təmiz yaşıl enerji ilə təmin etməkdir. İlkin müşahidələr göstərir ki, Qubadlı, Zəngilan, Cəbrayıl və Füzuli rayonlarında günəş enerjisi layihələri üçün əlverişli potensial mövcuddur və bu texniki potensial 7200 MVt-dan artıq olaraq qiymətləndirilir. Eyni zamanda Laçın və Kəlbəcərin dağlıq ərazilərində külək enerjisinin 2000 MVt həcmində texniki potensiala, eləcə də Tərtərçay, Həkəriçay və digər çayların böyük hidroenerji potensialı müəyyənləşdirilmişdir.

"Yaşıl enerji"yə keçid həm də Azərbaycanla Avropa İttifaqı arasında enerji təhlükəsizliyi sahəsində əməkdaşlığın yeni səhifəsini təşkil etdi. 2022-ci il dekabrın 17-də Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl" enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in imzalanması artıq Avropa İttifaqının "yaşıl enerji" layihəsində maraqlı olduğunu bir daha sübut edir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Buxarestdə Sazişin imzalanması mərasimində söylədiyi kimi, "yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Sazişin icrası Avropanın enerji təhlükəsizliyinə verəcəyimiz ümumi töhfə olacaqdır" fikri bir daha sübut edir ki, Azərbaycan artıq Avropanın mühüm elektrik enerjisi, əsasən yaşıl enerji təchizatçısına çevrilməyi planlaşdırır. İmzalanan bu müqavilələrlə Qara dənizin dibi ilə kabel vasitəsilə Azərbaycandan Avropaya "yaşıl" enerji veriləcək. Bu o deməkdir ki, Azərbaycan Respublikası Avropa qitəsinin enerji təhlükəsizliyinin təmin olunmasında neft və qazla yanaşı, artıq elektrik enerjisi ilə də iştirak edəcək.

Yerli və beynəlxalq tədbirlərdə Azərbaycan Respublikası yaşıl enerji siyasətinin dünya ictimaiyyətinin diqqətinə çatdırılması bir çox ölkələrdən olan şirkətlərin marağını artırdı. Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti ilə Müstəqil Dövlətlər Birliyinin və Xəzər regionunun ən böyük – 240 MVt gücündəki

"Qaradağ" günəş elektrik stansiyası istismara verildi. Bundan əlavə, 760 MVt gücündə günəş və 240 MVt gücündə külək enerjisi layihələrinin icrası məqsədilə investisiya müqavilələri imzalandı. Qarabağ və Şərqi Zəngəzurda yaşıl enerji zonasının yaradılması istiqamətində işlər davam etdirildi və bu ərazilərdə 52 MVt gücündə kiçik su elektrik stansiyaları istifadəyə verildi. Mərkəzi Asiya ölkələləri Azərbaycandan keçəcək Yaşıl Enerji Dəhlizlərinə marağını ifadə etdi və bununla bağlı Birgə Kommünike qəbul edildi.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilən "Yaşıl enerji" siyasəti regional inteqrasiyaya xidmət edən əməkdaşlıq formatı kimi Cənubi Qafqazda sabitliyin təmin edilməsində mühüm rol oynamaqla yanaşı, bütövlükdə Avropanın enerji təhlükəsizliyinə müsbət təsir göstərir. Azərbaycanın enerji siyasəti regionda təhlükəsizliyin möhkəmlənməsində strateji faktor kimi çıxış etməklə yanaşı, eyni zamanda Avropa qitəsində onun çəkisini əhəmiyyətli dərəcədə artırmışdır. Müasir dövrümüzdə reallıq ondan ibarətdir ki, Azərbaycan yalnız regionda gedən proseslərə deyil, eyni zamanda beynəlxalq aləmdə cərəyan edən proseslərə təsir göstərmək imkanına malikdir.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının – COP29 kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi ilə əlaqədar qərarın verilməsi məhz Azərbaycan Respublikasının milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması istiqamətində olan fəaliyyətinin beynəlxalq ictimaiyyət tərəfindən təqdir olunması kimi qiymətləndirilməlidir. Qeyd etmək lazımdır ki, COP29 çərçivəsində bütün dünyada gedən proseslərə, o cümlədən iqlim, yaşıl ideyalar, yaşıl proqramla bağlı məsələlərə Azərbaycan platformasında baxılacaqdır.

Bildiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin 2023-cü il dekabrın 25-də imzaladığı 4230 nömrəli Sərəncamla ölkəmizdə 2024-cü il "Yaşıl dünya naminə həmrəylik ili" elan edilmişdir. Sərəncamın icrası ilə əlaqədar Dövlət Sərhəd Xidmətinin hərbi hissələrində və sərhəd bölmələrində, eləcə də müxtəlif dövlət orqanları ilə birgə silsilə tədbirlər həyata keçirilir. Hərbi qulluqçuların və onların ailə üzvlərinin iştirak etdiyi aksiyalarda təbiətin qorunmasına töhfə vermək, ətraf mühiti sağlamlaşdırmaq, yaşıllıqları artırmaq, ekoloji tarazlığın bərpasına kömək etmək, atmosferi oksigenlə zənginləşdirmək məqsədilə yeni yaşıllıqlar salınır. Hərbi hissələrin ərazilərində 15800 (on beş min səkkiz yüz) ədəd müxtəlif növ ağac və gül kolları əkilmiş, abadliq işləri aparılmışdır.